# *Kərim TAHİROV:* "Forumda Milli Kitabxananın qızıl fondunda saxlanılan əsərlər nümayiş olunur"

**"Azərbaycan ədəbiyyatı tarixində ilk dəfə olaraq çox möhtəşəm bir forum keçirilir. Şamaxıda açılış mərasimi olan Azərbaycan Dili və Ədəbiyyatı Forumunun panel iclaslarında müzakirə olunan mövzular da tamamilə yenidir. Hətta məruzələr dialoq şəklində müzakirələrlə çox maraqlı oldu. Forumun ikinci günündə teatr, kino və uşaq ədəbiyyatına həsr edilən məsələlər müzakirə olunur".**

Bunu AZƏRTAC-a Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov söyləyib. Onun sözlərinə görə, forum çərçivəsində Azərbaycan Milli Kitabxanası tərəfindən böyük sərgi təşkil edilib. Sərgidə Milli Kitabxananın qızıl fondunda saxlanılan ən qiymətli nəşrlər nümayiş olunur. Belə ki, sərgidə Azərbaycanın görkəmli ədəbi simalarının, dünyaşöhrətli klassiklərinin ilk əlyazmalarını və çap kitablarını, əsərlərini görmək mümkündür.

"Dahi klassiklərimizin - Nizaminin, Nəsiminin, Füzulinin, Tusinin, Xaqaninin əlyazmalarını dünya kitabxanalarından gətirib sərgidə nümayiş etdiririk. Forumda bu cür kitabların nümayiş olunması təbii haldır. Ədəbi, elmi ictimaiyyət klassiklərimizin qiymətli əsərləri ilə maraqla tanış olur", - deyə K.Tahirov qeyd edib.

Azərbaycan. - 2023.- 3 sentyabr.- S.8